Kredo 2021.-24 fevral.- S.16.

# ƏJDƏR OL OBRAZI

## yaxud LO-dan gələn yazı

*(Əvvəli ötən sayımızda)*



Vicdanlı münasibət tələb edir ki, etiraf edək; Əjdər Ol Azərbaycan ədəbiyyatı üçün sıradan bir nəfər deyil. Onun ədəbi kimliyi Azərbaycan mənəvi mühitinin siması olub. Mənim (və yüzlərlə mənim) kimi sıradan ədəbiyyat adamlarının nəzərində Əjdər Ol (Əjdər Cəbiyev) yaşayan Xaqanidir, canlı Seyid Əzimdir, milli dərdlərin daşıycısı Sabirdir. Onun cəmiyyətdən az müddətədə olsa, təcrid olunması dəyərlərin əzilməsinin təcəssümüdür.

Mən hüquq mühafizə orqanlarının qanunun aliliyinə xidmətini qətiyyən şübhə altına almıram. Ancaq Hüquq Mühafizə orqanlarındakı ali şəxslərin humanist təbiətinə güvənərək xahişimi bildirirəm: Əjdər Cəbiyevə - Əjdər Ola mümkün qədər humanizm prinsipləri ilə yanaşmaq sözə, sənətə hörmətin təsdiqi demək olardı. Ona görə də vəziyyət aydınlaşana qədər zəmanəmizin böyük yazıçısı Əjdər Olu heç olmasa, göz altında saxlamaq şərti ilə azadlığa buraxsınlar.

Hər biri ədəbi mühitin hadisəsi kimi ədəbi tənqidin yaddaşında yer alan əsərləri yaradan sənətkar təkcə ədəbiyyatın milli ruhunun qorunmasına yox, həm də milli düşüncənin qorunmasına təkan verir. Təkcə elə "Lo" romanı 90-cı illərin əvvəlləri üçün yaddaşın qoruyucusudur, əgər belə demək mümkünsə, ədəbi qaraçuxadır. Nə qədər ədəbi qaraçuxadırsa, bir o qədər də əbədi qaraçuxasıdır. O dövrdə baş verən siyasi hadisələri bu gün hər kəs öz niyyətinə uyğun şərh etməyə çalışır. Kütləni isə biz görmüşük ki, populist çıxışlarla asanlıqla aldatmaq mümkündür. Ancaq Əjdər Ol "Lo" romanı ilə elə bir daş yazısı yaradıb ki, hər vaxt canlı şahid kimi tarixin obyektiv şərhinə sübut olacaq.

Bütün bunları nə üçün xatırladıram; mənə elə gəlir ki, Əjdər Olu düşdüyü mühitin özündə, yaranmış şəraitin özündə qavramaq, dərk etmək vicdani bir iş olardı. Onsuz da hamımıza məlumdur: məmur düşdüyü vəziyyətdə demək olar ki, müstəqil deyil. O, şəraitin diktəsilə hərəkət edir.

Qanunlarımızın humanist tərəfi də var; göz altında gözləmək yolu da seçmək olardı. Onsuz da zaman çox səhvləri düzəldir. Təəssüf ki bəzən gec olur.

Dövrümüzün böyük sənətkarı Musa Yaqub deyir ki, Əjdər Olun günahı olsa-olsa Günabaxan zəmisindən götürdüyü bir tumdur. Bir var bütöv zəmini biçəsən, bir də var zəmidən bircə tum götürəsən. Axı bunların fərqi var. Qanunun humanist mahiyyəti bunu yaxşı bilir.

Bu yazının ikinci başlığında "Lo" sözünü sərbəst verdik, dırnağa almadıq. Yəni təbiətin üstündən keçən bir külək var, buna "lo" deyirlər. Və elə buna müvafiq olaraq cəmiyyətdə baş verən hadisələrin də mahiyyətində lonu görmək mümkündür.

Əjdər Ol - Əjdər Cəbiyev açıq təbiətli adamdır. Onun ziyanını özündən başqa gərək ədəbi mühitin çoxlu simaları yığışıb ödəsin. Çünki Əjdər Ol işıq olanda özünü hamı üçün paylamışdı...

Biz çox məhkumluqların xəcalətini çəkmişik. Repressiyaların ağrısını yaşamışıq. Əjdər Ol - Əjdər Cəbiyev kimi sənətkarın da ağrısını çox istərdim ki, gələcək nəsillər yaşamasın.

Mən inanıram humanizm qalib gələcək...

**Əli Rza XƏLƏFLİ**
**15.02.2021**